**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**19 sentyabr 2025-ci il** **10-1/3-1-166/2025**

## Əsaslı sorğu edilən sənədlərin təqdim edilməməsinə görə intizam və tənbeh tədbirləri barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının sədrinin 2024-cü il 04 dekabr tarixli 10-1/3-3-12/2024 nömrəli "Auditorun şəxsi kabineti sisteminə yanlış məlumat daxil edən auditorlara qarşı ciddi intizam tədbirlərinin tətbiqinə dair Prosedurun təsdiq edilməsi haqqında" sərəncamı rəhbər tutulmaqla, "Vaqifoğlu Audit" MMC-nin bağladığı bir sıra müqavilələrə dair şübhə doğuran sənədlərin Auditorlar Palatasına təqdim edilməməsi barədə Haqsız rəqabətə qarşı mübarizə idarəsi (R.Cəfərli) və Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsi (Z.Almazov) tərəfindən təqdim edilmiş 2025-ci il 02 sentyabr tarixli xidməti məktuba əsasən əsaslı sorğu edilən sənədlərin təqdim edilməməsinə görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnaməyə uyğun olaraq "Vaqifoğlu Audit" məhdud məsuliyyətli cəmiyyəti (direktor – Quliyev Elçin Vaqif oğlu) barəsində intizam və tənbeh tədbirləri görülməsi məqsədilə

**ƏMR EDİRƏM:**

1. Auditorlar Palatası sədrinin 2024-cü il 04 dekabr tarixli 10-1/3-3-12/2024 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditorun şəxsi kabineti sisteminə yanlış məlumat daxil edən auditorlara qarşı ciddi intizam tədbirlərinin tətbiqinə dair Prosedur"a uyğun olaraq sorğu edilən sənədlərin təqdim edilməməsinə görə Palata Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında Əsasnamə"nin 7-ci "Peşə fəaliyyətindən müvəqqəti kənarlaşdırma tənbehi" maddəsinin 13-cü "Əsaslı sorğu edilən informasiyanın və tələb olunan sənədlərin Auditorlar Palatasına, Palata Şurası yanında komitələrə və komissiyalara təqdim edilməməsi" bəndinə əsasən "Vaqifoğlu Audit" MMC-yə (direktor – Quliyev Elçin Vaqif oğlu) peşə fəaliyyətindən altı ay müddətinə kənarlaşdırma tənbehi tətbiq edilsin.
2. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, üç gün müddətində bu əmrin mətninin qeyd edilən auditor təşkilatına göndərilməsini təmin etsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/43pivyrvRmfhWcQeYgVpLnSPC6zg9wsffJd0YsN6qLA%3D

3. Auditin təşkili və hesabatlılıq idarəsinə (V.Cavadov) tapşırılsın ki, bir həftə müddətində bu əmrdən irəli gələn məsələləri həll etsin.

4. Bu əmrin mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/43pivyrvRmfhWcQeYgVpLnSPC6zg9wsffJd0YsN6qLA%3D